# Tarixi mənbələr həqiqəti əks etdirir

**Tarixi mənbələr göstərir ki, Qərbi Azərbaycan türklərin qədim yaşayış məskəni olub. Ermənilər bu ərazilərə köçəri tayfalar kimi, Hindistan, Suriya, Livan, Osmanlı imperiyası, İran və digər ölkələrdən köçürülüb. Hayların gözləri həmişə Azərbaycan ərazilərində olub, mənfur planların reallaşmasında şeytan cildinə girən keşişlər böyük rol oynayıblar.**



İrəvan şəhərinin şöhrəti dünyaya yayılmışdı. Bu erməniləri və xaç qardaşları olan rusları çox narahat edirdi. Onlar İrəvan xanlığına zərbə vurmaq məqsədilə gizli sövdələşmələr aparırdılar…

1807-ci ildə Hüseyn xan Qacar İrəvan hakimi təyin edildi. 1808-ci ildə rus qoşunları İrəvanı mühasirəyə aldı. İki ay mühasirədə qalan şəhəri ruslar ələ keçirə bilmədilər və İrəvanın mühasirəsindən əl çəkdilər. Xanlığın şücaəti hər yerə yayıldı. Döyüşən orduya Hüseynqulu xanın qardaşı Həsən xan başçılıq edirdi. Polad kimi möhkəm olan Həsən xana xalq "Sarı aslan" ləqəbi vermişdi. Tarixçi Nizaməddin yazırdı: "İrəvan xanlığı (1747-1828) Azərbaycan xanlığının ən görkəmlisidir. Yadellilərin hökmranlığını həzm etməyənlər türkün düşmənləri idi. İğdır, İrəvan, Göyçə gölü ətrafı türklərinin müstəqillik bayrağını havalandıraraq azadlığı yaşatmalıdır".

1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində Rusiya ilə İran arasında müqavilə bağlandı. "Gülüstan müqaviləsi"nə görə İrəvan xanlığı İranın hakimiyyəti altına keçdi. Bakı, Gəncə, Quba, Şirvan, Talış, Qarabağ, Şəki xanlıqları Rusiya imperiyasının tərkibinə qatıldı. "Gülüstan müqaviləsi" ilə Azərbaycan iki hissəyə parçalandı. Böyük sevinc və şadlıq içində olan ermənilər bundan sonra Naxçıvan və İrəvan xanlıqlarının da Rusiyaya qatılması üçün geniş fəaliyyətə başladılar. Ermənilər durub-dincəlmir, sağa-sola çalxalanırdılar. 1818-ci ildə İrəvan şəhərində müsəlman əhalisinin sayı 80 faiz təşkil edirdi. Tarixi mənbələrdə olan məlumatlara görə, bu illər ərzində minlərlə türk ailəsi İrəvan xanlığının ərazisini tərk edib Qars vilayətində məskunlaşmışdır. Rus ordusu bu dövrdə İrəvana hücuma keçdi. Lakin böyük itki verən çar qoşunları yenə də geri çəkilmək məcburiyyətində qaldılar. Bu uğursuzluqdan sonra ruslar general Qudoviçi vəzifədən uzaqlaşdıraraq onun yerinə Qormosovu seçdilər. Koroğlu qalasında gizlənmiş Hüseyn xan öz dəstəsi ilə qoşuna köməyə gəldi.

İrəvan qalası təslim olmur, çar isə öz generallarını dəyişdirirdi. Xanlığın qoşunu ermənipərəst çar qoşunlarına ağır zərbələrini davam etdirdi, çox keçmədən rus qoşunlarına əlavə kömək göndərildi. Döyüşlərdə Abbas Mirzə İran qoşunu ilə Hüseyn xanın köməyinə gəldi. 1827-ci ildə İrəvan yaxınlığında şiddətli döyüşlər getdi və rus qoşunu yenə də məğlubiyyətə uğradı. 20 il mərdliklə müdafiə olunan İrəvan qalası ruslar tərəfindən alındı.

İrəvan qalasının rusların əlinə keçməsi ermənilər tərəfindən razılıqla qarşılandı. Hətta ruslara hədiyyələr də göndərildi. "Türkmənçay müqaviləsi"ndən sonra İran və Türkiyədən Qərbi Azərbaycan ərazisinə çox sayda erməni köçürüldü. Ermənilərin istər İrəvan, istərsə də Qarabağ və Gəncə ərazilərinə köçürülməsində A.S.Qriboyedovun böyük xidməti olmuşdur. O, yeni yaradılmış erməni vilayətində hayların say çoxluğunu təşkil etmək üçün dəridən-qabıqdan çıxırdı. Köçürülən ermənilər əsasən İrəvanda, Göyçədə, Vedidə və digər müsəlman kəndlərində yerləşdirilirdi. Naxçıvan şəhərinə ermənilərin köçürülməsi çox böyük qarşıdurmaya və narazılığa səbəb oldu. 1831-ci ilin aprelinə kimi Axıska, Borçalı, Pəmbək və Şörəyel, Talin, Göyçə gölü ətrafı, Baş Abaran nahiyələrində 14044 ailə, yəni 84 mindən artıq erməni yerləşdirildi. Qərbi Azərbaycan torpaqlarında ermənilərin məskunlaşdırılması elə sürətlə aparıldı ki, azərbaycanlıların sayı erməni vilayətində xeyli azaldı. Köçürülən ermənilər Azərbaycan türklərinə qarşı əfi ilana döndü. Hər vasitə ilə onlar iki millət arasında nifaq salmağa çalışdılar. 1918-1920-ci illərdə erməni daşnakları İrəvanda, Amasiyada, Göyçənin Basarkeçər, Çəmbərək rayonlarında, Dərələyəzdə, Lori-Pəmbəkdə, Zəngəzur mahalında, Zəngibasarda və digər ərazilərdə xalqımıza qarşı analoqu olmayan qırğınlar törətdilər, soydaşlarımız deportasiyaya məruz qaldılar.

Ayrı-ayrı vaxtlarda Moskvadakı rəhbərlər İ.Stalin, Molotov, A.Mikoyan, M.Qorbaçov və başqaları erməni ideologiyasına xidmət edərək azərbaycanlıların hüquqlarının pozulmasına zəmin yaratdılar. "Dağlıq Qarabağ" məsələsini ortaya atan erməni şovinistləri Moskvanın dəstəyi ilə 1988-ci ildə daha da fəallaşdılar, Ermənistanı mitinqlər dalğası bürüdü. 1988-ci ildə faşist xislətli erməni daşnakları son deportasiyanın reallaşmasına nail oldular, qışın boranlı-çovğunlu günlərində 300 min Azərbaycan türkü ata-baba torpaqlarından zülm və işgəncə ilə qovuldu. Onların hüquqlarının pozulması heç kəsi narahat etmədi.

Artıq 37 ildir ki, Qərbi azərbaycanlılar yurd həsrəti ilə yaşayır, inanırlar ki, bir gün Oğuz ellərinə dönəcək, haqq-ədalət bizim tərəfimizdə olacaq. Mən Qərbi Azərbaycanda yaşayarkən ermənilərin, xüsusilə gənc hayların millətçilik ideologiyasını yaxından hiss edirdim. Rayon mərkəzinə getməyə peşman idik, hər addımda ermənilərin qərəzli hərəkətləri ilə üzləşirdik.

Yaşımın bu çağında doğma yurdumu, qoynunda gəzdiyim "Çalmalı", "Daşlı Güney" dağlarını, "Qumlu bulağı" düşünür, ayaq izlərim qalmış qədim türk torpağına qayıtmaq istəyirəm…

**Musa ABBASOV,**
**Bakı şəhəri, iş adamı.**